Zeynul-abidin Əl-Huseyni

# YALQUZAQ





## 1. NƏ BAŞ VERİR?

Fuad əl-Barri ilə bağlı bütün bu əhvalat, qaçqın düşərgəsi sakinlərinin, düşərgənin girişindəki daş üzərində həmişəki kimi fövqəladə bir ciddilik və hətta həyəcan ifadəsi ilə oturduğunu gördükləri gündən başladı.

Bu düşərgənin bütün sakinləri Fuad əl-Barrini sevdiyindən, onun bu ciddilik və narahatlığının səbəbi barəsində ucadan danışmağa başladılar.

Fuadın on üç yaşı var. Valideynləri Qəzzada "İkinci Müharibə" adlanan müharibədə yəhudilər tərəfindən öldürüldükləri üçün uzun müddətdir nə ailəsi və nə də evi var. Düzdür, düşərgə sakinləri onun özünü böyük bir ailədə, öz evində hiss etməsi üçün hər şeyi edirlər. İstədiyi vaxt istənilən qapını döyə bilər, hər yerdə qayğı və sevgi tapar.

Vaxtının çox hissəsini, xüsusən də yay aylarında, başqalarından uzaq bir yerdə, hündür bir sərv ağacının altında keçirməyi sevirdi. Bu səbəbdən də düşərgədə onu vəhşi və bəzən “kiçik Yalquzaq” adlandırırdılar. Beləliklə, bu ləqəb onun üstündə qaldı.

Vaxt keçdi, hər kəsin özünün problemləri, çətinlikləri var idi və qaçqın düşərgəsinin bütün sakinləri yavaş-yavaş oğlanın əsl adını unutdular. O, hətta özü də ayrı adla çağırılanda cavab vermirdi ...

Deməli, Kiçik Yalquzaq öz sevimli sərv ağacının altında bir gün oturur, ikinci gün oturur, ancaq qayğı sifətindən çəkilmir və gözlərindəki həyəcan işığı hər zamankından daha çox alovlanır. İnsanlar bunun nə olduğunu, oğlanın narahat olmasının səbəbini öyrənməyə çalışdılar, amma səyləri nəticəsiz qaldı. Nə olub? Doğrudan da bu bir sirr idi!

Sonda hamı Yalquzağın belə qəribə baxışına alışdı. Hətta dostu, “Bildircin” adlı kiçik mağazanın sahibi Şeyx Əbu Talib də bunun sirrini oğlandan öyrənə bilmədi.

Ancaq bundan sonra bir hadisə baş verdi - bütün düşərgə həyəcanlandı, hamı onun haqqında müxtəlif cür danışmağa, yenidən düşünməyə başladılar: Sanki Yalquzaq balası birdən-birə tamamilə yox oldu və ikinci həftə də düşərgədə görünmədi. Nə oldu? Onunla nə baş verdi?

Daha sonra işlər çox ciddi bir dönüş aldı. Bir neçə həftə sonra düşərgəyə çoxlu sayda hərbi maşın axışdı, İsrail əsgərləri və zabitləri tökülüşdülər, hamını dayandırmağa başladılıar, böyük-kiçiyi sorğu-suala tutdular: "Hardadır sizin Yalquzağınız?"-deyə soruşurdular.

Əsgərlər çadırlarda, otaqlarda, həyətlərdə axtarışa başladılar. Sərv ağacını da unutmadılar! Hər şeyi alt-üst etdilər, Yalquzağı axtararaq sanki yerin altını üstünə çevirdilər.

Bəli ... Beləliklə, o vaxtdan bəri Kiçik Yalquzaq dillər əzbərinə çevrildi. Bütün düşərgə onun haqqında xəyal qurmağa başladı!

Şeyx Əbu Talib isə  Yalquzaq haqqında xəbər almaq üçün ona müraciət edən hər kəsə bir cavab verirdi: - Yalnız Allah bilir!

## 2. YALQUZAQ BAXIR, QULAQ ASIR VƏ DÜŞÜNÜR

Kimin əhvalatdan xəbəri varsa, o, əlbəttə, hər şeyi bilirdi. Bəziləri Yalquzaqla bağlı bu müəmmalı hekayənin səbəbini 1967-ci ildə yəhudilərin fələstinli qaçqın düşərgələri ilə birlikdə bütün əraziləri - kəndləri, şəhərləri, ümumiyyətlə, bu torpaqları ələ keçirməsinin başlanğıcında axtarmaq lazım olduğunu söyləyirlər.

Ancaq düşərgədə hörmət edilən, əsasən təcrübəli insanlar var ki, Yalquzağın taleyinin ondan çox əvvəl həll olunduğunu

söyləyirlər. Düşmənlər Süveyş kanalı uğrunda müharibədə valideynlərini və bütün qohumlarını öldürdükdə Yalquzaq südəmər bir körpə idi. Onu öldürülmüş anasının cəsədinin yanında, qan içində çırpınaraq ağlayan halda tapdılar. Körpə aramsız qışqırırdı:

- Ana, qan! Ana, qan! ..

Düşmənlər Qəzza şəhərinin ətrafında olan məntəqəni ikinci dəfə ələ keçirəndə düşərgə sakinləri Yalquzağın bütün davranışlarında ciddi bir dəyişiklik baş verdiyini hiss etdilər. Dostları ilə, düşərgədəki həmyaşıdları ilə oynamağa olan marağını tamamilə itirdi, torpaq qazmağı, köhnə əşya alıcılarına satmaq üçün dəmir parçaları, tökmə güllələr və köhnə mis sikkələr axtarmağı tamamilə dayandırdı. Birdən Kiçik Yalquzağımız düşmənlərin onların düşərgəsinə gəldikləri gündən bəri ciddi  şəkildə böyüdüyünü və çox şeydən imtina etməyin, oyuncaqları unutmağın vaxtının gəldiyini anladı. Gecə-gündüz özünə eyni sualı verirdi: “Mən nə etməliyəm?” Ancaq cavab tapa bilmirdi. Bu sualın üstündə düşünür və düşünürdü.

Bir dəfə bütün səmanı bulud basdı, leysan yağış yağdı və hər tərəfdən gələn soyuq külək növbəti dəfə sanki evlərin və daxmaların son fanerini qopartmağa çalışırdı. Birdən Yalquzaq onlara çox yaxın olan kəskin partlayış səslərini eşitdi, onu yağışdan və küləkdən qoruyan daxma möhkəm silkələndi.



Atış səsləri gəldi, ardınca qışqırıqlar eşidildi. Yalquzaq küçəyə atıldı, düşərgədəki küçələri və keçidləri bağlamaq üçün hər yerdən qaçan əsgərləri, zirehli maşınları və tankları gördü. Bir işğalçı İsrail əsgəri qulaq batıran iyrənc səslə meqafona

bağırırdı: “Təxribatçılar, təslim olun! Təxribatçılar, təslim olun!”

Yalquzaq düşərgədə -özü də məhz bu düşərgədə - partizanların, fədayilərin olduğunu ilk dəfə onda başa düşdü. Ah, onda bütün zəif bədənini nə qədər alovlu bir sevinc hissi bürüdü, ürəyi sıxıldı, qəlbi yalnız bir istəkdən qəfəsdəki quş kimi çırpındı: “Kaş fədayilər bu işğalçı əsgərlərə təslim olmasınlar, təslim olmasınlar!”

Atəş səsləri daha ucadan eşidildi, partlayışlar daha tez-tez guruldadı, təcili yardım maşınlarının sirenaları uladı. İşğalçı yəhudilərin maşınlarının əyləcləri döngələrdə zingildədi, maşınlar yaralı və öldürülən düşmən əsgərlərini daşımağa başladı.

Yalquzaq o zaman çox şeyi başa düşdü. Fədayilərin təslim olmadığını, dördünün şəhid olduğunu, sonuncu güllələrinə kimi vuruşduqlarını bildi. Yalquzaq, Əbu Dərvişin - bəli, bəli, düşərgədəki hər kəsin dəli olduğunu düşündüyü, heç kimin əhəmiyyət vermədiyi həmin dilənçi qoca Əbu Dərvişin – partizanları daxmasında gizlətdiyini, onlarla çiyin-çiyinə döyüşdüyünü və yaralandığını öyrəndi.

Ertəsi gün bütün düşərgə sakinləri ilə birlikdə Yalquzaq şəhid olan fədailəri dəfn etməyə getdi. Orada matəm yürüşündə başqa düşərgələrdən olan qaçqınları gördü, qadınların

ağlamaq, həm də sevinc dolu fəryadlarını eşitdi və çox təəccübləndi. Əvvəllər bunu yalnız toylarda eşidirdi. Qışqıran qadınların öldürülən fədailərin anaları və həyat yoldaşları olduqları söylənildikdə, özü də ağlamağını saxlaya bilmədi. Fədai anası  oğlu öldürüldükdə niyə bu cür qışqırırdı? Bu, Yalquzağı heyrətə və çaşqınlığa saldı, baxmayaraq ki, saçları çallaşmış dostu şeyx Əbu Talib ona hər şeyi izah etdi:

- Biri vəfat etmiş qəhrəmana yas tutmalıdır ... Toylarda belə fəryadlar - sevinc qışqırıqları eşitmisən, onda insanlar yeni bir həyata sevinirlər, yeni bir körpənin doğulmasına sevinirlər ... **Amma qəhrəmanlar iki dəfə doğulurlar, oğlum!**

Yalquzaq anladı ki, onun ölkəsində insanlar hamıya belə yas tutmurlar. Həyat çətindir, astanasında - sevinc və ağrı var. **Yalnız qəhrəmanlar iki dəfə doğulurlar**. Haqq uğrunda döyüşlərdə həlak olanlar ölmür - xalqın yaddaşında yaşamağa davam edirlər, insanlara güc verir və özlərinə də şöhrət gətirirlər.

- Söylə, Əbu Talib əmi, - Yalquzaq soruşdu, - necə onlardan biri ola bilərəm?

Əbu Talib cavab olaraq başını yellədi:

**- Fədayi olmaq istəyən soruşmur,oğlum, iş görür!**

Yalquzaq yaşlı şeyxin bu sözləri haqqında çox düşündü. Bir axşam kiçik bir çayxananın qapısında oturub "İnqilabın Səsi" verilişinin xalqı müqavimət göstərməyə və dözümlü olmağa çağırdığı hissəni eşitdi. Diktor elan etdi ki, axşam saat səkkizdə, "Partizan bombası"nın hazırlanması üsulu haqqında qısa danışılacaq. Bu " Partizan bombası"nı hazırlamaq üçün mümkün olan vasitələr hamının ixtiyarında var, qiyməti də çox aşağıdır ..."

O andan Yalquzaq radioya öyrəşdi, imkan olan hər yerdə verilişləri dinlədi və bir yeniyetmənin zalım işğalçılara qarşı mübarizə apara bilməsi üçün çoxlu yeni, faydalı şeylər öyrəndi.

"Bir fədayi olmaq üçün nə etməliyəm?"- bu sual Yalquzağın başından çıxmırdı. Bir dəfə öz-özünə düşündü: "Yola çıxacağam, əsas küçəyə gedəcəyəm, düşmən maşınlarını və patrullarını izləyəcəyəm!"

Bütün həftəni Yalquzaq bu maşınları seyr etdi, saydı, hətta nömrələrini əzbərlədi, hər birində neçə hərbçinin olduğunu və hansı rütbələrə malik olduqlarını yadında saxladı. Ancaq bu məlumatla nə edəcək? - Yalquzaq bunu bilmirdi. Yalnız bir çıxış yolu var idi. Fədailərlə əlaqə qurmaq lazım idi.

Yalquzaq şəhərə getməyə qərara aldı. Hər gün orda fədailərin düşmən əsgərlərinə hücum etdiyini eşidirdi. Lakin, ora getmədən əvvəl dostu şeyxin yanına getdi.

- Əbu Talib əmi, şəhərə getmək qərarına gəlmişəm.

Şeyx təəccüblə oğlana baxaraq dedi:

- Bəs şəhərdə nə edəcəksən, oğul? Orada kimsən yoxdur, ümumiyyətlə itib-batarsan orda.

- Onları orada axtaracağam. - Yalquzaq dedi.

Şeyx daha da təəccübləndi, düşündü, sonra əlini əlinə vuraraq dedi:

- Yaxşı, mütləq baş verəcək işin qarşısını almaq olmaz!

Bir az susandan sonra dedi:

- Dinlə, oğlum. Əgər belə qərara gəlmisənsə, onda bunu etmək lazımdır. Bir neçə gün şəhərdə qalmağı düşünürsənsə, dostum Əbu Samih əl-Buveycinin yanına get, o, şəhərdədir, sahildə, Əş-Şati düşərgəsindədir, orda yaşayır. Ona əmin Şeyx Əbu Talibin səni göndəriyini söylə. Orada bir iş tapmaq istəyirsənsə, Əbu Samihdən xahiş et ki, ayaqqabı təmizləmək üçün sənə bir ayaqqabı qutusunu borc versin. şəhərdə çörək qazana biləsən.

Əbu Talib oğlanın başını məhəbbətlə sığalladı və əlavə etdi:“Yaxşı, balaca Yalquzaq, çox itib-batma!”.

Oğlan qocaya təşəkkür etməyə başladı, amma Əbu Talib nədənsə üzünü yana döndərdi və öskürməyə başladı.

Yalquzaq şəhərə getdi. Qaçqınların “Ana Küçə” adlandırdıqları magistral yolda bir şəhər avtobus dayanacağı var idi.

## 3. ŞƏHƏRDƏ

Yalquzaq, son dayanacaqda şəhərdə qalan sərnişinlərlə birlikdə düşdü. Əş-Şati düşərgəsinə necə gedə biləcəyini soruşmağa başladı. Məlum oldu ki, ora çox uzaqdır, başqa bir avtobusla getmək lazımdır. Yalquzaq bu cür də etdi.

Dəniz kənarında yerləşən düşərgəyə çatana qədər yolda ətrafına baxdı. Yalquzaq bütün bu fələstinli qaçqın düşərgələrinin bir-birinə nə qədər bənzədiyinə təəccübləndi. Bu qədər yol getmişdi, amma elə bil öz düşərgəsini heç tərk etməmişdi.

Bir qrup oğlan düşərgənin girişində topla oynayırdı. Yalquzaq onlara yaxınlaşanda oyuna ara verdilər, qəribə baxışla ona baxaraq aralarında pıçıldaşdılar: – “Bu oğlan haradan çıxıb gəlib?”

Yalquzaq onlara yaxınlaşdı.

- Mən Əl-Məğazi düşərgəsindənəm, Əbu Samih əl-Buveycini axtarıram.

Əbu Samihin adını söyləyən kimi birdən bütün oğlanların baxışlarının ayrı bir yerə dikildiyini gördü. Geri döndü, zirehli texnikalardan yerə atılan əsgərləri müşahidə etdi, hamının da əlində hazır vəziyyətdə silahları vardı.

Yalquzağı qorxu bürüdü: “Nə edim?” Qəfildən ona çox da uzaq olmayan bir oğlan qışqırdı:

-Ticarət, ticarət!

Yalquzaq təəccübdən titrədi, fəryada qalan uşaqlar da qoşuldular və eyni şeyi təkrarlamağa başladılar: “Ticarət! Ticarət!”

Bu, nə deməkdir? Heç nə başa düşmək mümkün deyildi, başqaları tərəfindən də təkrarlanan bu qəribə söz getdikcə daha geniş yayılırdı.

Bir dəqiqədən az müddətdə bu haray bütün düşərgəni doldurdu, hər yerdən müxtəlif səslər təkrar edirdi: “Ticarət! Ticarət! .. ” Özü də bilmədən hamı ilə birlikdə bu sözü qışqırmağa başladı, ancaq bir şeyi hiss edirdi ki, yenə heç nə başa düşə bilmir: Nədir bu? Niyə? Nə üçün?



Yalquzağa düşərgədə olan insanlar dəli kimi görünürdü ... Ancaq məhz bu anda işğalçı İsrail əsgərləri insanlara atəş açmağa başladılar. Yaxınlıqda bir yerdə partlayış oldu, alov zirehli texnikalardan birinin üzərinə yayıldı. Yalquzaq bir nəfərin onun əlini şiddətlə çəkdiyini hiss etdi.

- Axmaq kimi burda niyə dayanmısan?! Öldürərlər!- Bir uşaq düz onun qulağının içinə qışqırdı.

Yalquzaq yan tərəfə sıçradı, o uşağın arxasınca qaçmağa başladı. Bu uşaq düşərgənin girişində onunla qarşılaşanlardan biri idi.

- Nə olub? - Nəfəsi kəsilmiş halda soruşdu.

- Fədayilər onlara hücum etdi ...

Yalquzaq ürəyinin sanki qopduğunu hiss etdi ... Hər şey bitdi! Budur, fədayilər yaxındadır, amma harada? Onlara necə çatmaq olar?

Oğlana tərəf döndü, dodaqlarını tərpətdi, amma heç nə deyə bilmədi.

- Nə qədər bizi tutmayıblar buradan uzaqlaşaq! – Yalquzağın qulağı bu sözləri eşitdi.

- Bəs niyə bizi tuturlar ki?- Yalquzaq təəccüblə soruşdu.

- Fədayiləri xəbərdar etdiyimiz üçün! - oğlan dişlərini qıcıyıb mızıldadı, səbri tükənmişdi.

Yalquzaq heç nə başa düşmədi, ancaq yeni tanışının böyründə qaçmağa davam etdi. Lakin, sadəcə bu cür, sakit qaça bilmirdi.

- Hey ... Qulaq as! Onları necə xəbərdar etdik axı?

Uşaq cavabında sürətini azaltmadan dedi:

- Sən axmaqsan, nəsən? Başa düşmürsən? Sən də onlara hamı kimi xəbərdarlıq etdin. Bizim hər birimiz hərbi bir patrul və ya əsgər görəndə dərhal bu sözü təkrarlamağa başlayırıq və kim eşitsə başqasına ötürər ... Beləliklə, səs fədayilərə, düşərgədə olanlara çatır... Onlar da döyüşə hazırlaşırlar. Lazım olanda hücuma keçirlər...

Yalquzaq bu sözlərdən çox təəccübləndi. Öz düşərgələrində belə bir hiyləni niyə düşünməmişdilər?!

Uşaq davam etdi:

- İndi hərəkətin qadağan ediləcəyini elan edəcəklər ... Axtarışlar başlanacaq. Səni küçədə tapsalar və düşərgədə qərib olduğunu bilsələr, işin pis olacaq. Onlardan qaça bilməzsən!

- Bəs nə edim? - deyə Yalquzaq soruşdu.

- Səni evimizə aparacağam ... Yoxsa artıq Əbu Samihlə görüşmək istəmirsən?

- Əlbətdə, əlbəttə, istəyirəm ... Onu tanıyırsan?

- Sabah səhər səni yanına aparacağam, - oğlan özünə inamlı bir tonda söz verdi, - indi görürsən, düşərgədəki vəziyyət əlverişli deyil.

Yalquzaq Riyad adlı bu oğlanın evində gecələdi. Bununla birlikdə, adından əlavə, Yalquzağın yeni tanışı ona Əş-Şati düşərgəsində oğlan uşaqlarının düşmənə qarşı istifadə etdikləri bir çox maraqlı fəndləri açıqladı.

- Biz, məsələn, şəhərə gedəndə, - Riyad dedi, - asfaltın üstünə mismar səpirik - düşmən maşınları onların üzərindən sürəndə təkərləri deşilir, hərəkət edə bilmirlər ... Ya da onların avtomobilləri qorunmayanda benzin bakının qapağını açıb ora qum tökürük, onda mühərrik mütləq sönəcək, maşın uzağa gedə bilməyəcək.

Riyad, divarlara düşmənlərə və xainlərə qarşı yazılar yazdıqlarını, müxtəlif nümayişlər təşkil etdiklərini və işğalçı əsgərlərə daş atdıqlarını da söylədi.

Yalquzaq, altı fədayinin məktəb binasında necə müdafiə olunduqlarını və hamının bir gecə və gündüz ərzində vuruşaraq şəhid olduqlarını danışdı.

- Və özümüz də eşitdik, - Riyad hekayəsini bitirdi, - ölümdən əvvəl fədayi necə qışqırdı: “Yaşasın İnqilab!”

Yalquzağın gözlərindən yaş tökülürdü. O,necə də özü bir iş görmək istəyirdi! Fədayilərlə görüşmək, onlardan biri olmaq və ...

- Fədayilərlə necə əlaqə qura bilərəm? – deyə Riyaddan soruşdu.

Riyad qərib oğlanın gözlərinə boylandı, sonra arxasını ona çevirib pıçıldadı:

- Gecən xeyirə qalsın!

Yalquzaq səhv etdiyini anladı, üzr istəmək istədi, amma Riyad özünü yatmış kimi göstərdi.

Yalquzaq o gecəni yata bilmədi. Çoxlu yeni şeylər öyrənmiş və eşitmişdi. Bütün gecə motorların səs-küyünü, hərbi maşın sirenlərini, tək-tük atışları, qışqırıqları eşitdi ... Riyad bu cür hadisə baş verəndə necə rahat yata bilirdi?

Bu gecə Yalquzaq üçün çox uzun göründü, ancaq hər halda səhər açıldı. Səhər Riyad onu Əbu Samih əl-Buveycinin yanına apardı.

- Budur, Əbu Samihin evi! - Riyad göstərdi və əlavə etdi: - Biz düşərgədə heç vaxt fədayilərin harada olduğunu soruşmuruq!

- Başa düşdüm, - Yalquzaq başını yellədi.

Qapını döydü, tək gözlü bir adam onunla görüşünə çıxdı və soruşdu:

- Nə istəyirsən?

-Əbu Samih dayını görmək istəyirəm- deyə Yalquzaq cavab verdi.

- Ondan nə istəyirsən?

- Şeyx Əbu Talib məni onun yanına göndərdi.

Kişi gülümsədi:

- Mən Əbu Samih dayıyam, içəri gir. Əbu Talib necədir?

Yalquzaq uzun müddət ona Əbu Talibin həyatı haqqında danışdı və sonda şəhərdə iki-üç gün qalmaq və işləmək istədiyini söylədi, ayaqqabı təmizləmək üçün fırçaları olan bir ayaqqabı qutusunu borc istədi.

-Yaxşı - Əbu Samih dedi və gülümsədi, tək gözü işıqlandı, - qulaq asıram və itaət edirəm! Əgər Şeyx Əbu Talibə belə fikirləşirsə, hər zaman istəyini yerinə yetirməyə hazıram. Nə vaxt işə başlayacaqsan?

- İndi ... - Yalquzaq özünü saxlaya bilmədi.

- Yaxşı, yaxşı ... - Əbu Samih dedi, gedib güzgülü bir qutunu gətirdi və dedi: - Bu, əlimdə olanların ən yaxşısıdır. Qardaşım Əbu Talibə hörmətə görə səndən gündə yalnız on qıuruş alacağam ...

Yalquzaq kişiyə təşəkkür etdi, qutunu çiyninə asdı və getdi.

Əsas küçədə çox gəzdi, ətrafda maşınlara, dükanlara, insanlara baxdı.

-Şübhəsiz ki,- öz-özünə dedi, - bu şəhərdə ən azı bir fədayi iə görüşəcəyəm ...

Yalquzaq nəhayət özünü geniş, enli bir meydanda gördü. Ətrafda iriçaplı silahlarının lülələrini insanlara tuşlayan çoxlu zirehli maşın vardı. Əsgərlər damların üstündə dayanmışdılar, avtomat silahlarının lülələrini aşağıya tuşlayıb meydanda insanları nişan almışdılar və diqqətlə yoldan keçənlərə baxırdılar.

“Bu yerdə çox sayda düşmən əsgəri var, deməli mümkündür ki, çoxlu fədayi də olsun?”- Yalquzaq öz-özünə soruşdu.

Hərbi maşınlardan birinə yaxınlaşdı və kiminsə onu çağırdığını eşitdi:

- Əəə, oğlan, bura gəl!

Yalquzaq diksinib səsin gəldiyi tərəfə boylandı. Orda bir yəhudi zabiti dayanmışdı, birbaşa ona baxırdı. Yalquzaq bir anlıq qətiyyətsiz halda dayandı. Billmirdi ki, onu çağırırlar, ya yox? .. Sonra yerindən tərpəndi, ancaq zabitin səsi yenidən yaxınlaşmasını əmr etdi. Yalquzaq ona yaxınlaşdı. Zabit ayağını qabağa uzadıb, barmağı ilə işarə etdi:

- Ayaqqabılarımı təmizlə!

Yalquzaq zabitin qarşısında yerindəcə donub qaldı.

-Dedim ki, ayaqqabıllarımı təmizlə! Tez ol! - deyə israil zabiti bağırdı.



Yaqluzaq necə və haçan bu sözü dediyini özü də bilmədi: - Təmizləmək istəmirəm!

Zabitin üzü qəzəbdən əyildi, qışqırdı:

- Nə dedin, ərəb?!

- Təmizləmək istəmirəm! – Yalquzaq qətiyyətlə dedi.- Heç kim məni sənin ayaqqabılarını təmizləməyə məcbur edə bilməz!

Zabit irəli addımladı və əlini yelləyib oğlanın üzünə möhkəm vurdu. Yalquzaq silkələndi, ancaq çətinliklə də olsa özünü ayaq üstdə saxladı.

Ağzından qan şırnağı açıldı, qutu tappıltı ilə yerə düşdü və qapağı açıldı.

Biz sizə ayaqqabılarımızı təmizləməyinizi əmr etdiyimiz zaman,- zabit sözünə davam etdi, - onları təmizləməlisiniz. Aydın oldu?

Yalquzaq qaşlarının altından ona baxdı, oğlanın gözlərində yaş muncuqlandı.

- Ayaqqabılarını təmizləmək istəmirəm!

Zabitin əli bir daha oğlanın üstünə qalxdı. Yalquzaq yerə sərildi. Zabit təpiyi ilə qutunu vurub səkinin qırağına atdı, içində ayaqqabı yağı olan olan şüşə qablar qırıldı, qutunun güzgüsü çatladı.

Yuxarıdan zabitin səsi gəldi:

- Köpəklər, sizə ağalarla necə danışmağı öyrədəcəyik! Eşidirsən, küçük?

Yalquzaq ağzını dolduran duzlu tüpürcəyi hiss etdi, dodaqlarını əlinin arxası ilə sildi. Əlinə baxdı - qan içində idi ... Sonra şəhərdən uzaq durmağı tövsiyə edən Əbu Talibin sözlərini xatırladı ... İnsanlar ətrafda dayanıb ona baxırdılar. Bəli, əgər o fədayi olsaydı bu yəhudi onu belə döyməyə və alçaltmağa cürət etməzdi- deyə düşündü...

Yalquzaq ayağa qalxmaq istəsə da, bacarmadı.

Yenidən cəhd etdi və güclü bir əlin onu havaya qaldırdığını hiss etdi. Başını çevirdi - yanında böyük bir kişi dayanmışdı və geniş təbəssümlə gülümsəyirdi. Sonra pıçıldadı:

- Getdi ... Yaxşı! Nə etdin, səni niyə vurdu?

- Hanı ... qutum haradadır? .. - Yalquzaq göz yaşları içərisində boğulurdu.

- Budur, qorxma! – kişi dedi - Qalx ... Sən haradansan?

- Əl-Məğazi düşərgəsindən ...

- Qohumların haradadır? – Tanımadığı kişi soruşmağa davam etdi.

- Mənim qohumum yoxdur! – Yalquzaq onun sözünü yarımçıq qoydu. Göz yaşları boğazını sıxdı və sonra acı-acı hönkürüb ağlamağa başladı.

Kişi oğlanın əlindən tutub dükanına apardı, otuzdurdu, başını sığallamağa başladı. Mağazada xidmət edən bir oğlana dedi:

- Get qutunu gətir.

Bir az susduqdan sonra kişi Yalquzağın gözlərinə baxaraq, soruşdu:

- Adın nədir?

-Fuad,-deyə cavab verdi. - Ancaq düşərgəmizdə hamı mənə Yalquzaq deyir.

- Balaca Yalquzaq!.. – Kişi dedi. – Etdiyin bu iş sənin şücaətindən xəbər verir,Yalquzaq!

- Düşmənlərin ayaqqabılarını silməyəcəyəm! - deyə Yalquzaq hirsləndi.

- Ooo! – kişi dedi.- İndi sənin xeyrin ayaqqabı təmizləməklə çörəkpulu qazanmaqdır? Hə?

Ancaq Yalquzağın qara gözlərində heç bir inam yaranmadı və kişi sözünə davam etdi:

- Qulaq as... Sən xeyrinin nədə olduğunu bilmirsən. Cəsarət, qardaşım, müdriklikdir və müdriklik isə maraqların və xeyrinin harada olduğunu bilməkdir ... Artıq kiçik deyilsən, bunu anlamalısan.

Kişi bir anlıq düşündü, sonra qətiyyətlə dedi:

- Bax, sən ailənin olmadığını söylədin. Niyə düşərgəyə qayıtmaq istəyirsən? Niyə mənim evimdə işləməyəsən? Mən sənə yaxşı pul verərəm. Bu cür iş, qardaş, bir cüt ayaqqabı təmizləmək üçün qəpik-quruş ümidi ilə küçələrdə qaçmağınla müqayisə oluna bilməz!

Yalquzaq cavab vermədi. O, yeniyetmə satıcı tərəfindən küçədən gətirilən qutusuna baxmağa qərq oldu. Ürəyi sıxıldı. Yenidən ağlamağa hazır idi.

- Qırıb, köpək içində yağı olan bütün şüşələri qırıb... hətta güzgünü də! .. Mən Əbu Samihə nə deyim? İndi mən nə edim, hə?

Kişi yavaşca Yalquzağın çiyninə vurdu, gülümsündü:

- Yaxşı, yaxşı! Bu haqda heç düşünmə, balaca Yalquzaq! Səni bütün bunlardan qurtaracağam ... Qutunu da düzəldəcəklər, kədərlənmə, narahat olma!

Mağaza sahibi bir daha yeniyetmə satıcını yanına çağırdı və dedi:

-Bu qutunu indi götür, qırılan güzgü əvəzinə yenisini qoy, nə lazımdırsa et, yeni ayaqqabı yağı al.

Yalquzaq tanımadığı mehriban insana dərin minnətdarlığını hiss etdi, bir şey söyləməyə çalışdı, amma kişi onu dinləməyib soruşdu:

- Yaxşı, indi mənim üçün işləmək barədə nə düşünürsən?

- Əvvəlcə qutunu Əbu Samihə qaytarmalıyam ...

- Neynək ... Neynək ... əlbəttə ki, - dükan sahibi razı bir səslə dedi və başını yellədi.

Bir az sonra satıcı bir ayaqqabı qutusu ilə gəldi və onu Yalquzağa təhvil verdi. Qutu lap təzə və hətta əvvəlkindən daha da yaxşı görünürdü. Uşaq kişi ilə vidalaşdı və qutunu sahibinə qaytarmaq üçün sahildəki düşərgəyə tələsdi.

Yalquzaq qaçqın düşərgəsindən qayıtdıqdan sonra sahibi onu avtomobilinə dəvət etdi. Adının Əbu Zuheyr olduğunu, Yalquzağın əsas məsuliyyətinin indi bağ evinə və bəzi ev işlərinə baxmaq olacağını söylədi.

Əbu Zuheyrin maşını hər tərəfi hündür yaşıl ağaclarla əhatə olunmuş böyük, gözəl bir evin qarşısında dayandı. Hasara yaxınlaşmağa macal tapmamış, yaşlı bir kişi onların qarşısına

çıxdı, dəmir darvazanı sürətlə açıb, ikiqat əyilərək Əbu Zuheyri salamladı. Avtomobil bir neçə metr daha yavaşca sürdü və evin girişində dayandı. Yalquzaq həvəslə ağaclara, misli görünməmiş bitki və çiçəklərə, girişi bəzəyən heykəllərə baxdı. Ömrü boyu bu evdən daha gözəl bir ev görməmişdi.

Kişi Yalquzağa işinin çətin olmayacağını, yeməkdən dərhal sonra ona lazım olan hər şeyi izah edəcəyini söylədi. Sonra ev sahibi arvadını çağırdı, qadın əri ilə görüşməyə çıxdı və dərhal kiçik bir qız da evdən çıxaraq özünü atasının qucağına atdı. Atası əyilib onu öpdü. Qız Yalquzağa tərəf döndü və təəccüblə ona baxdı.

- Yaqluzaq adlanan bu oğlan bizim evdə işləyəcək, - kişi dedi.

Nadirə adlanan bu balaca qız cingiltili səslə ucadan güldü:

- Aaa, heç kimin özünü Yalquzaq adlandırdığını eşitməmişdim.

Yalquzaq çox utandı, amma heç nə demədi.

- Məktəbə gedirsən, Yalquzaq? - deyə Nadirə soruşdu.

- Getmişəm- deyə oğlan cavab verdi.

- Deməli, oxuya və yaza bilirsən! – qız dedi – Mənim çoxlu rəngli jurnal və şəkil kitablarım var. Çoxlu maraqlı məzəli hekayələr bilirəm! Oxumaq üçün sənə kitab və jurnallar verəcəyəm, yaxşı?

Ancaq bu zaman Nadirənin anası qəzəblə dedi:

- Neçə dəfə demişəm ki, jurnallarını və kitablarını heç kimə vermə, çirkləyirlər, cırırlar! Bəsdir, keç evə görüm!

Yalquzaq susdu. Narahat oldu, gözlərindən yaş axdı. Əbu Zuheyrin ona dediyini eşitdi:

- Hələlik bağçada gözlə. Sənə yemək göndərəcəyik. Deyəsən acmısan.

Yalquzaq oturub ağaclara və güllərə tamaşa etməyə başladı. Bir neçə metr aralıda zəncirdə bir it və yanında taxtadan kiçik it evciyini gördü ...

Beləliklə, oturub bağa tamaşa edirdi, birdən yaxınlıqda bir gənc qızın səsi eşidildi:

- Ey! Bu, sənin yeməyindir.

Xidmətçi yeməyi qabağına qoyub, o biri tərəfə getdi. Yalquzaq baxışları ilə onu izlədi. Eyni qabda ikinci yeməyi itin qabağına qoydu. Hirsindən qan Yaqluzağın üzünə vurdu, rəngi qızardı, qaşları çatıldı. Niyə onun üçün bura yemək gətirdilər? Niyə onu evdə onlarla birlikdə yeməyə dəvət etmədilər?! Nə bu mehriban kişi, nə qadın, nə də bu şən qız?

Yalquzaq bir anlıq düşərgədə girdiyi evləri xatırladı. Düşərgə sakinlərinin ondan çəkinmələri, tək yemək təklif etmələri heç vaxt baş verməmişdi.

Yalquzaq itə baxdı. İt həvəslə yemək parçalarını qarnına ötürürdü. Xeyr, o, belə yemək yeyə bilməz! Qaçqın düşərgəsində fərqli qaydalar var.Uşaq qalxıb yeməyini aparıb itin yanına qoydu, gözünün ucu ilə ona baxan it mırıldadı və yenidən həvəslə yeməyə girişdi.

Yalquzaq darvazadan çıxaraq var gücü ilə qaçmağa başladı.

## 4. YALQUZAĞIN DÖNÜŞÜ



Yalquzaq Əl-Məğazi düşərgəsinə çatdıqdan sonra dərhal Əbu Talibin dükanına getdi. Dostu onun belə tez qayıtmağına bir az təəccüb etdi, ancaq Yalquzaq dərhal hər şeyi izah etdi:

-Şəhərdə fədayilərlə görüşməyə çalışdım, amma bacarmadım. Onları necə tapa bilərəm?

- Əvvəlcə sirli kəlməni bilməlisən, - Əbu Talib dedi.

- Sirli kəlmə? O, nədir? - Yalquzaq təəccübləndi.

- Düşmənə qarşı hərəkətə başlayanda, artıq sirli kəlməni söyləyirsən ... Və fədayi olursan, - şeyx dedi və gözləri müəmmalı şəkildə parıldadı. Yalquzaq düşündü.

- Bəs, cəsarət nədir, Əbu Talib əmi? - deyə soruşdu.

Yaşlı fələstinli diqqətlə oğlana baxdı.

**- Cəsarət sənsən, mənim kiçik Yalquzağım... Bu, başqalarının çətin bir işi görməyə tərəddüd etdiyini gördüyün zaman şücaətlə o işə girişməkdir ...**

Yalquzaq düşərgədə və şəhərdə başına gələnlərin hamısını şeyxə danışdı.

-İnsan öz təcrübəsindən öyrənir- Əbu Talıb dedi- **Bütün bunlar, uğrunda çalışdığın işlə qarşılaşanda sənə fayda verəcək, oğul ...**

Bu söhbətdən çox vaxt keçmədi. Bir gecə Yalquzaq düşərgədən bir az aralı keçən bir dəmir yolu xəttinin yanında oturmuşdu və birdən kimlərinsə səsini eşitdi. Onlar sakitcə danışırdılar, amma getdikcə daha da yaxınlaşdılar. Yaqluzağın ürəyi çırpınmağa başladı, yad adamların onu görməsindən çox qorxdu. Onlardan biri deyirdi:

- Xeyr,partlayıcılar burada qoyulmamalıdır. Düşərgədən uzaqda ...

Başqa bir səs onun sözünü kəsdi:

- Sakit! .. Məncə burada kimsə var.

Yalquzaq başa düşdü ki, onu görüblər. Yad adamlar onu tapacaqlar. Onu vuracaqlarından qorxdu və titrək səslə dedi:

- Mən Yalquzağam ...

Bir anda beş gənc oğlan onu mühasirəyə aldı, onlardan biri möhkəm qolundan yapışdı:

- Belə bir zamanda burada nə edirsən?

- Mən həmişə burada otururam ... – Yalquzaq dedi.- İstəyirəm ki... sizin kimi fədayi olmaq istəyirəm!

Yalquzağı tutan fədayi əlini bir az boşaltdıı, sonra tamamilə çəkdi. Biri dedi:

**- Bax, belə! Bu uşaq haqqında çoxdan danışmalıydıq. Adın nədir?**

- Adım Fuaddır, amma hamı məni Yalquzaq çağırır.

Uşaq kişilərin pıçıltı ilə danışdığını eşitdi.

Bir az sonra onlardan biri ona tərəf döndü:

- Bir fədayi olmaq üçün bir şərt var ...

- Mən hazıram!... – Yalquzaq səbirsiz halda soruşdu.

- Düşmən əsgərinin silahına sahib çıxmalısan,- partizan dedi: - Onun silahını alsan, bizdən biri olacaqsan! Şərt bundan ibarətdir.

Yalquzaq susdu. Bu vəziyyət dözülməz dərəcədə çətin, sadəcə qeyri-mümkün idi.

- Yaxşı, nə deyirsən? -Fədayi soruşdu.

- Bəs necə ... necə bunu edə bilərəm? - Yalquzaq soruşdu.

- Onu özün bilərsən ... Bunu yerinə yetirdikdə, sirli kəlməni söyləmiş olarsan, o zaman bizdən biri olacaqsan.

Yalquzaq çıxıb gedən bu adamların addımlarının səsini eşitdi.

- Şərti yerinə yetirəndən sonra sizinlə necə əlaqə saxlayacağam?! - Arxadan qışqırdı.

- Şərti yerinə yetirdikdə, ölkənin hər yerindəki bütün fədayilər bundan xəbərdar olacaqlar, çünki o zaman sirli kəlməni söyləmiş olarsan ... – gecənin qaranlığından səs qulağına çatdı.

Yalquzaq sevinclə düşərgəyə qayıtdı, o, fədayilərlə tanış oldu! Tezliklə onlardan biri olacaq ... Əlbəttə, şərti yerinə yetirə bilsə.

Bütün gecə özünü bir fədayi kimi təsəvvür etdi. Yalnız səhər arzularından nə qədər uzaq olduğunu və onu hansı həqiqətlərin əhatə etdiyini anladı. O, düşdüyü vəziyyəti xatırladı və qaşqabağını salladı. Narahat, düşüncəyə qapılmış halda, təsadüfən Şeyx Əbu Talibin dükanına rast gələnə qədər düşərgə küçələrində hədəfsiz gəzdi. Şeyx oğlanla görüşəndə təəccüblə səsləndi:

- Bu gün niyə bu qədər ciddisən, Yalquzaq?

-Bu, bir sirdir!- Yalquzaq düşüncəli şəkildə dedi.

Əbu Talib gülümsədi:

- Ooo! Görünür hədəfinə doğru irəliləyirsən.

Yalquzaq Əbu Talibin dükanından bir neçə addım aralanmışdı ki, arxadan eşitdi:

-Düşərgənin şimalındakı dəmir yolu bu gecə partladılıb ...

“Bilirəm” -Yalquzaq öz-özünə mızıldadı.

Bir anlıq çox şeydən xəbərdar olduğu haqda hiss ona gəldi, başqaların bilmədiyi məsələləri bildiyini düşündü, bundan qürur duydu. Ancaq sonra bununla öyünmək istəmədi.

Çətin vəziyyəti düşündükdə Yalquzaq yenidən narahat olmağa başladı. Öz-özünə danışırdı: “Düşmən əsgərinin silahını almaq üçün onu öldürməliyəm. Düşməni öldürmək üçün əvvəlcə hansısa bir silah tapmalıyam ... Silah əldə etmək üçün yenidən lazımdır ki... Oh!”

Yalquzaq bu cür düşüncələrlə pərişan qaldı, amma ümidsizliyə qapılmadı, çünki fədayilərə şərti yerinə yetirəcəyinə söz vermişdi.

“Əgər bu iş mümkün olmasaydı, fədailər bu şərti qabağıma qoymazdıalar!”- Öz-özünə dedi- “Axı, onlardan hər biri bu çətin şərti vaxtında yerinə yetirib: düşmənin silahını alıb başqalarına sirli kəlməni söyləyib ... Əgər belədirsə, deməli şərt yerinə yetirilə bilər! Amma bütün sual bundadır! Bunu necə etmək olar?!”

Yalquzağın indi bu barədə düşünməməsi sadəcə mümkün deyildi. O, uzun müddət düşündü. Və... Birdən radio yayımında eşitdiklərini xatırladı. Uşaqların da düşmənlə mübarizə apara bilməsi ... Sevinc Yalquzağın bütün vucudunu titrətdi! Nəhayət, bir həll yolunu tapdı!

Yalquzaq yaxşı bilirdi: planını həyata keçirmək üçün əvvəlcə üç şey tapmalısan: boş bir şüşə butulka, sürtkü yağı və benzin.

Əvvəlcə Yalquzaq boş butulka tapmaq qərarına gəldi. Sərinləşdirici içkilər dükanına gedib bir şüşə qazlı su aldı.

-Boş butulkanı qaytarsan pulun artığını alacaqsan- satıcı ona dedi.

Yalquzaq suyu içdi və şüşəni təhlükəsiz yerdə gizlətdi. "İndi sürtkü yağı almalıyam"- deyə düşündü.

Əlbəttə ki, Yalquzaq bir az yağ yanacaqdoldurma stansiyasından da ala bilərdi, amma birdən yanacaqdoldurma stansiyasının sahibi şübhələnsə və ondan sürtkü yağını niyə aldığını soruşsa nə cavab versin?

Yalquzaq, ayrı cür davranmağı qərara aldı. Tez-tez gəzdiyi dəmir yolu stansiyasında içi qara yağla dolu bir çala gördüyünü xatırladı - bu yağla depodakı işçilər lokomotivlərin təkərlərini yağlayır və artığını oraya tökürdülər. Depo düşərgədən uzaq deyildi və bir də ki, yağ tapmaq üçün ayrı bir yer də yox idi. Dəmir yolu vağzalını əsgərlər qoruyurdu, mühafizəçiləri şübhələndirmədən aldatmağın yolunu tapmaq lazım idi ...

Yaqluzaq parçadan hazırlanmış topunu götürüb stansiyaya getdi. Bu topla oynamağı çox yaxşı bacarırdı. Yalquzağın

ümumiyytələ ayrı oyuncağı da yox idi. Onu istədiyi qədər ayağının ucu ilə çiləyə, hərəkət halında başının üstündən atıb dabanı ilə ötürə, əlləri ilə toxunmadan başında saxlaya bilirdi ... Dəmiryol kənarından stansiyaya yaxınlaşdı. Mühafizəçinin onu izləmədiyindən əmin olan Yalquzaq topa möhkəm bir zərbə vurdu. Top uçaraq düz sürtkü yağı ilə dolu çalaya düşdü.

Yalquzaq qorxaq addımlarla əsgərə yaxınlaşdı.

- Əmican! İcazə verin topumu çaladan çıxardım, olar? - deyə yavaşca soruşdu.

- Nə top? - Gözətçi şübhə ilə baxışlarını ona bərəltdi. Günəş hər yeri yandırırdı və kölgəliyin altından çıxmaq istəmədi. Ancaq həqiqətən çalada bir top var idi.

- Götür! Ancaq ruhun belə burada olmasın! -Əsgər narahat halda dedi.

Top artıq tamamilə qara rəngdə idi və çox ağırlaşmışdı - əskilər yağı özünə hopdurmuşdu. Belə topla daha oynaya bilməzsən!

Yalquzaq bütün qüvvəsi ilə bu qadağan olunmuş ərazidən qaçmağa tələsdi. Əsgər xor baxışı ilə çirkin oğlanın ardınca baxdı və avtomat tüfənginin qayışını çiynində düzəltdi. Günəş dözülməz dərəcədə yandırırdı...

Barmaqlarının arasından yağ süzülürdü və quru torpağa düşən qara nöqtələr Yalquzağın düşərgədə boş şüşəni gizlətdiyi gizli

yerə gedən yolunu göstərirdi. Yad gözlərdən uzaq olan oğlan yeganə oyuncağına hopmuş mayeni şüşənin dar boğazına sıxdı. İşi bitirdikdən sonra şüşəni bir mantarla sıx bağladı, bir çuxur qazdı, xəzinəsini orada gizlədib torpaqla örtdü. Əski topu tozdan boz rəngdə idi. Artıq Yalquzağın ona ehtiyacı yox idi.

“ İndi qaldı benzin”- deyə düşündü və əllərinə baxdı.



Çox ciddi bir səylə, Yalquzaq ovuclarını və barmaqlarını tək şalvarına və köynəyinə sildi. Tezliklə bütün paltarları qara yağ ləkələri ilə örtüldü.

Bütünlüklə bulaşıq, parıladayan halda çılpaq və çirkli ayaqları ilə düşərgənin girişindəki yanacaqdoldurma məntəqəsinə tərəf hərəkət etdi.

-Paltarımı təmizləmək üçün biraz benzin almaq istəyirəm, - Yalquzaq yanacaqdoldurma məntəqəsində xahiş etdi.

İşçi oğlanın mazutla yağlanmış, bulaşmış paltarına baxdı və mehrubanlıqla dedi:

- Təmizləmək üçün xüsusi benzin var, hər qutusu on quruşa.

Beləliklə, Yalquzaq planını həyata keçirmək üçün lazım olan üç şeyi bu cür əldə etdi: bir şüşə butulka, yağ, benzin.

“Alaqaranlıqda – öz-özünə dedi, -“Partizan bombası”nı düzəltməyə başlayacağam. Hər şey tam olaraq radioda eşitdiyim kimidir. Bomba alınacaq və qarşımda qoyulan çətin şərti yerinə yetirə biləcəyəm ...“

Yalquzaq bombanı ehtiyatla təkcə onun tanıdığı bir yerdə gizlətdi. Hər dəfə partizan bombalarının partlayışlarını eşidəndə öz-özünə deyirdi: “Eybi yox, çox az qalıb ... Şərti yerinə yetirəcəyəm, onlardan biri olacağam ...” Ancaq yenə

də... Harada? Nə vaxt? Bu bomba kimə atılacaq? Yalquzaq yeni bir çətinliklə qarşılaşdı.

Düşmən maşınlarının, yük maşınlarının və patrulların hərəkətini saatlarla izləmək üçün düşərgənin yaxınlığındakı əsas yolda keçirdiyi günləri xatırladı. Bax, haçan bu müşahidələr lazım olur!

Məsələn, Yalquzaq bilirdi ki, yanan bomba "Cip"ə atılmamalıdır. Zabitlər adətən belə bir maşınla gedirlər və bir neçə zirehli maşın isə həmişə "Cip"i izləyir. "Cip"ə yaxınlaşmaq olmaz, - fikirləşdi, - Məni dərhal tutacaqlar.

Magistral yoldan nə vaxt və hansı maşınların keçdiyini xatırlamağa başladı. Bomba atmaq üçün ən uyğun maşının dəmir yolu stansiyasına yaxın məsafədə olan mühafizəçinin dəyişdirilməsini təmin edən maşın olduğunu anladı. Bu maşında həmişə sürücü də daxil olmaqla üç əsgər gedir. Adətən, gün batandan sonra gecə növbəsini dəyişdirmək üçün bu maşın burdan keçir. Bu hücum üçün ən yaxşı vaxt olardı. Bu zaman magistral yolda hərəkət az olurdu, əməliyyat keçirmək, silahları ələ keçirmək və düşmənin kömək qüvvələri gəlməmiş gizlənmək mümkün idi. Buna bir daha əmin olmaq üçün Yalquzaq bütün gününü magistral yolda keçirdi və arxayınlaşdı. Hər şey düşündüyü kimi idi.

Gecə "Partizan Bombası"nı çıxardı, butulkanı atmazdan əvvəl fitilini yandırmaq üçün kibrit götürdü. Hətta kibritlərin yaxşı yanıb-yanmadığını da yoxladı.

Yalquzaq çox ehtiyatla magistral yola doğru getdi. Yolun bir döngəsinin yaxınlığında bir yerdə faraların yol kənarındakı badam ağaclarının kölgəsini işıqlandırmadığını müşahidə etdi. Oradan gələn maşına əlini uzatsaydı çatardı. Burdan tapşırığı uğurla başa vurub tez bir zamanda qaçmaq mümkün idi.

Yalquzaq bombasını bir badam ağacının köklərinin altında gizlədib düşərgəyə qayıtdı. Bütün gecə oğlan titrəyirdi - həyatı artıq tamamilə gələcək əməliyyatın uğurundan asılı idi ...

Vaxt gəldi və Yalquzaq magistrala tərəf hərəkət etdi. Butulkanı gizlətdiyi ağaca tərəf yollandı. Vaxt çox yavaş keçirdi, oğlanın ağlına hər cür düşüncələr gəlirdi. Qaranlıq gecənin dərinliyindən ulduzları göstərən səmanın dərinliklərinə baxdı. Aram-aram, həyəcanlı səsi ilə astadan Allahla danışmağa başladı. Yalquzaq Allahdan onu tək qoymamağı, fədayilərə qoşula bilmək üçün nəzərdə tutduğu işi yerinə yetirməkdə kömək olmağını istədi.

Bir azdan maşın keçmək üzrə idi. Yalquzaq ağacın köklərinə qısıldı, əlini butulkaya tərəf uzadıb, onun nazik boğazından yapışmağa çalışdı ... Əl titrədi, barmaqları əsdi və butulkanı götürə bilmədi. "Buna bax,- deyə Yalquzaq düşündü, - bu

nədir?” Həyatında ilk dəfə belə bir qorxu hiss etdi, sanki bütün bədəni ona itaət etmirdi, hətta dizləri də titrəyirdi.

Yalquzaq güclə ağac gövdəsinə söykənə bildi. Oğlan halsız halda oturub ağladı. Uzaqdan düşmən əsgərlərini daşıyan maşının faralarının işığı göründü. Yalquzaq ayağa qalxmağa çalışdı, amma bacarmadı!

Yalquzaq çarəzis halda inildədi.

- Kömək et, ilahi!...

Ayağa qalxmağa çalışdı, amma ayaqları sözünə baxmadı.

Avtomobil dönən ərəfədə sürətini azaltdı. Faralar bir anlıq yanıb-söndü və motorun səsi yalnız bir neçə metr aralıda eşidildi. Yalnız bir addım atmaq lazım idi və içində alışan maddə olan şüşə butulka düz maşının içinə uçacaqdı.

Beləliklə, verilmiş vədə yerinə yetiriləcəkdi! ..

Yalquzaq həsrət dolu baxışlarla maşını izlədi. Bir neçə dəqiqədən sonra qayıdacağını bilirdi, amma magistral yolun o biri tərəfindən gedəcəkdi. Onda tapşırığı yerinə yetirmək daha çətin olacaq ...

Yalquzaq ağacdan qopub bombanı əvvəlki yerində gizlədib uzaqlaşdı. Ayaqları onu sərv ağacına tərəf apardı. Qaranlıqda ağacın iri düyünlü köklərinə ilişib büdrədi, yıxıldı və acı-acı ağladı, gücsüz halda yumruqları ilə yeri döyəclədi...

“Nə qədər qorxduğumu bilsələr, fədayilərə nə deyəcəyəm, sözümə əməl etmədim?! Etmədim!”

Riyadın üzünü, o gecə ondan öyrəndiyi hər şeyi xatırladı. Yalquzaq bu oğlanın qarşısında utandı, qoca şeyxdən utandı ... Və yenə ağladı, yuxuya gedənə qədər uzun müddət ağladı.

Ertəsi gün səhər Yalquzaq, çox ağlamaqdan gözləri qızarıb şişmiş halda Əbu Talibin dükanına getdi.

- Nə oldu, oğlum? - şeyx təşvişə düşdü.

Yalquzaq başını aşağı salıb yerə baxdı, susdu.

Əbu Talib əmi, - nəhayət soruşdu, - qorxu nədir?

- Qorxu gücsüzlükdür! – qoca dedi.

- Sən də qorxursan, Əbu Talib əmi? - Yaqluzaq başını qaldırdı.

Əbu Talib güldü, sonra dedi:

-Sənin Əbu Talib əmin yalnız xəyallarından qorxur, oğul.

Bir az susduqdan sonra əlavə etdi:

- Ancaq eyni şəkildə, biz insanlar, quş ilandan qorxduğu kimi qorxmamalıyıq.

- Bəs, quş ilandan necə qorxur? - deyə Yalquzaq soruşdu.

“Bax, bir sərçə, - deyə şeyx başladı, - ilanı görəndə şiddətli qorxudan iki qanadlı bir quş olduğunu da unudur. Sadəcə

qanadlarını çırpsın və ilanın ağzından canını qurtarıb, uzaqlara uçsun. Sərçə həm də dimdiyi ilə ilanın gözlərini ovub  və bu cür onu öldürə biləcəyini də unudur ...

Əbu Talib bir an susdu və sonra davam etdi:

- Budur oğlum, quşun ilandan qorxmasını deyəndə bunu demək istədim. Aydın oldu?

- Aydındır. - Yalquzaq başını tərpətdi.

- Yalquzaq, bir şeyi həmişə yadında saxla! **Hər birimiz məqsədimizi, uğrunda çalışdığımız hədəfimizi unutsaq, o zaman qorxu və uğursuzluq bizim üçün qaçılmaz olacaq!** – müdrik şeyx sözünü tamamladı.

Yalquzaq Əbu Talibin dükanından uzaqlaşdı və bu müdrik qocanın sözlərini düşündü. Ürəyi getdikcə uğurlu bir gecə əməliyyatı etmək əzmi ilə doldu. And içdi ki, ikinci dəfə qorxunun onu məğlub etməsinə icazə verməyəcəyək. Artıq sevimli sərvinə yaxınlaşan Yalquzaq dostu Xəlili gördü.

- Nədənsə şəhərdə yaman az qaldın! – Xəlil dedi.

- Bəli, düşərgəyə tez qayıtmaq istədim, - Yalquzaq cavab verdi.- Sənin haqqında soruşdum. Dedilər ki, sən burda deyilsən. Harda idin?

Xəlil cavab verməkdə tərəddüd etdi. Sonra sualı eşitməmiş kimi dedi:

- Yalquzaq, yadındadır, mənə söz verdin, şəhərdən qayıdanda orada başına gələnləri söyləyəcəksən? Son vaxtlar çox dəyişilmisən.

Yalquzaq mehribanlıqla əlini dostunun çiyninə qoydu, Xəlili qucaqladı:

- Sabah hamınız hər şeyi biləcəksiniz!

Oğlanlar bütün günü birlikdə keçirdilər ...

Gecə Yalquzaq magistral yolun kənarında badam ağacının yanında tək dayanmışdı. O, qətiyyətli idi.

“Əgər dünən, - öz-özünə dedi, - şəhərdə yəhudi zabitin məni necə döydüyünü xatırlasaydım, bu qədər qorxmazdım. Fədayilərə verdiyimi sözü necə unutmuşdum? Qorxduğum üçün bir şüşənin boğazından necə yapışmağı da unutdum! Axı bu bombanın fitilini yandırsaydım, maşın alovlanardı! – Sonra başını qaldırıb pıçıldadı.- Sirrimi tək sən bilirsən. Yalnız sən! Hər şeyə sən şahidsən. Allahım, mənə cəsarət ver, şücaət ver. Sözümə əməl edə bilim.

Yalquzaq bombanı sağ əli ilə tutdu, sol əllə cibini eşdi. Kibritlər yerində idi. Artıq barmaqları titrəmirdi. Ayaqları da əsmirdi.



Cibindən kibrit qutusunu çıxarıb kibriti götürdü. Hazırlaşdı! Bir dəqiqə sonra bir maşın görünəcək. Faralar artıq uzaqdan göründü ... Bomba birbaşa avtomobilin içinə atılmalıdır - şüşə orada qırılıb maşını yandırsın. Maşın getdikcə döngəyə

yaxınlaşdı. Budur, fitil alovlandı. Avtomobil badam ağacı bərabərində dönmək üçün çatanda sürətini azaltdı. Tez ol, Yalquzaq!... Cəld!

Bütün gücünü toplayan Yalquzaq əl bombasını atdı. Butulka avtomobilin ön şüşəsinə çırpıldı, nəsə qırıldı. Gözlərinin önündə alov qalxdı, qışqırıq səsləri eşidildi.

Yalquzaq maşının yan tərəfə döndüyünü, böyrü üstə getdiyini gördü ... Birdən maşından iki kölgə sıçrayıb çıxdı, düşmən əsgərləri atəş açdılar.

Yalquzaq heyrətə gəldi. Bu barədə əvvəllər niyə düşünməmişdi? Onun ikinci əl bombası olsaydı, onda hər şey fərqli olardı.

Dönüb ağacların arxasında gizlənməyə vaxt tapmamış qabaqdan da atəş səsi gəldi. Oğlan uzanıb yerə yapışdı. Aşan maşından çıxan atəşin işığında hər iki əsgərin dibindən baltalanmış ağac kimi asfaltın üstünə yıxıldıqlarını gördü. Əllərində avtomat olan iki oğlan onların yanına atılıb silahlarını götürməyə başladılar.

Daha bir nəfəskəsici an… və Yalquzaq fədayilərə tərəf sıçradı.

- Etdim! .. Sözümə əməl etdim! Bombanı atan mən idim.

Partizanlardan biri onun çiynindən yapışdı:

- Tez buradan uzaqlaşaq!

Yalquzaq xilaskarlarının dalınca qaçdı. On addımdan sonra daha iki nəfərin onlara qoşulduğunu gördü. Xeyli qaçdılar. Sonra oğlan özünü bir qrup fədayinin arasında gördü.

- Bombanı ... maşına atan mən idim - nəfəsi kəsilə-kəsilə dedi. – Mənə silah verin! Mən buna layiqəm!

Partizanlardan birinin yandırdığı şam işığında Yalquzaq Xəlili gördü. Oğlanlar təəccüblə bir-birlərinə baxdılar.

Bir söz belə deməyə vaxt tapmamış qrup komandiri Yalquzağın yaxınlığına gəldi və avtomatı ona uzadıb dedi: - Al! Sən buna layiqsən!

Silahı iki əli ilə sinəsinə sıxan oğlanın gözlərindən yaş axırdı. Dostu Xəlilə baxdı, yanına qaçdı, hərarətlə onu qucaqladı və ağladı.

- Dedim axı. Sabah hər şeyi biləcəksən! - Yalquzaq göz yaşları içində titrək bir səslə təkrarlayırdı.

## 5. SON

Baxın, bu günə hələlik bəsdir ... Amma yox, bir anlıq gözləyin! Bu gün Əl-Məğazinin bir çox sakinləri sizə təsdiq edə bilər ki, Yalquzaq unudulmaz gecədə itkin düşdükdən sonra bu fələstinlilərin qaçqın düşərgəsinin həyatında birdən-birə çox ciddi dəyişikliklər baş verdi. On üç yaşlı oğlanların orada yox olmağa başladıqlarını söyləyirlər. Şeyx Əbu Talib “Bildirçin”

dükanını bağladı, iki balaca oğlunun əlindən tutub yola düşdü və bir daha geri dönmədi! Bütün ayağıyalın Əl-Məğazi düşərgəsi çoxlu fərqli hiylələr və fəndlər öyrəndilər. Artıq balaca oğlanlar düşməni təkcə qazıb tapdıqları iti metal parçaları ilə qarşılamırlar ...

İndi dastanı qurtardıq. Əlbəttə, ancaq Yalquzaq haqqında olan dastanımız qurtardı. Təsadüfən onun haqqında yeni bir şey eşitsəniz, diqqətli olun, sakit durun! Onun haqqında çox yüksək səslə danışmayın. İşğalçı yəhudi sionistləri tərəfindən işğal edilmiş Fələstində elə insanlar var ki, qabağına qoyulmuş şərti yerinə yetirə bildiyinə görə Yalquzağın dirisini, ya da ölüsünü ələ keçirmək istəyirlər. O gecə Yalquzaq qorxunu məğlub etməyi bacardı və indi əsl kişi kimi partizan parolunu bilir.. Onun adı indi fərqlidir. Fədayi! Ərəbcə bu söz fədakar deməkdir. Canını qurban edən. Dini üçün, azadlığı üçün, haqq üçün canını fəda edən! Yalquzaq kimi!